**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.2.76**

**SƏFƏR ƏLİYEV**

# NURU PAŞA KOMANDANLIĞINDA QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANA YARDIMI

*Çar hökuməti süqut etdikdən sonra, Qafqazda yeni müstəqillik əldə etmiş ölkələrdən fərqli olaraq Azərbaycanda demək olar ki, silah-sursat və təlim keçmiş əsgər yox dərəcəsində idi. Azərbaycan Rus bolşevikləri, erməni daşnakları və digər qüvvələrin təcavüzlərinə qarşı mübarizə aparmalı idi. Bu zaman Azərbaycan liderləri, Azərbaycan Milli Ordusunun yaranması təşəbbüsünü həyata keçirdilər. 1918-ci il iyunun 4-də Batumidə Osmanlı İmperiyası ilə imzalanan müqavilənin 4-cü maddəsinə əsasən Azərbaycana hərbi yardım göndərilməsi üçün Osmanlı İmperiyasından yardım istənildi. Bu səbəbdən Qafqaz İslam Ordusu 1918-ci ildə Bakını işğaldan qurtarmaq üçün hərəkətə keçdi. Osmanlı İmperiyasının dəstəyi ilə qurulan bu ordu Azərbaycanın müstəqillik mübarizəsinə töhfə verməyi qarşısına məqsəd qoymuşdu. 1918-ci ilin yayında Bakını yadelli düşmənlərdən qurtarmaq üçün Qafqaz İslam Ordusu bölgəyə gəldi. Qafqaz İslam Ordusu buradakı Azərbaycan qüvvələri ilə birləşdikdən sonra Bakıya doğru irəlilədi və həmin ilin sentyabrında Bakıya yürüş təşkil etdi. Nəhayət, 1918-ci il sentyabrın 15-də Bakı düşmən işğalından azad edildi. Bu hadisə Azərbaycanın müstəqillik mübarizəsində mühüm dönüş nöqtəsi oldu. Bakının azad edilməsi ilə Qafqaz İslam Ordusu Azərbaycanın siyasi gələcəyində mühüm rol oynadı.*

**Açar sözlər:** *Milli Ordunun yaradılması, Batum müqaviləsi, Qafqaz İslam Ordusu, Nuru Paşa, Bakı.*

**Giriş.** 28 may 1918-ci ildə AXC-nin qurulmasından sonra, ölkə müxtəlif xarici təhlükələrlə üzləşdi, xüsusilə, rus bolşevikləri, erməni daşnakları və digər qüvvələrin təcavüzlərinə qarşı mübarizə aparmalı oldu. Bu zaman Cümhuriyyətin liderləri ordu quruculuğuna ciddi yanaşdılar. İlk olaraq, Azərbaycanın müxtəlif bölgələrindən könüllülər cəlb edildi. Görkəmli şəxslər tərəfindən Azərbaycan Milli Ordusunun yaradılması ideyası ortaya qoyuldu. Qısa zamanda Milli Ordunun yaradılmasına qərar verildi [13, s. 11]. Daha sonra 4 iyun 1918-ci ildə Osmanlı imperiyası ilə bağlanan müqaviləyə görə Məhəmməd Əmin Rəsulzadə və digər siyasətçilər osmanlılardan silah yardımı aldılar [3, s. 107]. Milli Ordunun yaradılması erməni və daşnak qüvvələrinin, xüsusən də S.Şaumyanın narahatlığına səbəb oldu [8, s. 220].

**Azərbaycan Osmanlı münasibətləri.** Azərbaycanın müstəqilliyini elan edəndən sonra 1918-ci il iyunun 4-də Batumidə M.Ə.Rəsulzadə H.Hacinski (xarici işlər naziri) ilə birlikdə "Osmanlı Dövləti Hökuməti"nin iclasında müstəqil Azərbaycan Respublikası adından Türkiyə nümayəndə heyəti ilə görüşdü. 1918-ci il iyunun 4-də Qafqaz Cəbhəsinin Baş Komandanı Vahib Paşa, Türkiyə dövləti adından ədliyyə naziri Xəlil Mentəşə "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi" imzaladılar. Azərbaycan Xalq Cümhuriyyətinin xarici dövlətlərlə imzaladığı bu sənəddə Osmanlı İmperiyası və Azərbaycan hökumətinin siyasi, hüquqi və iqtisadi əsaslarla dostluq əlaqələrinin qurulmasına qarşılıqlı razılıq verdiyi bildirilirdi. İmzalanan sənədin birinci maddəsi belə idi: *"Osmanlı dövlətilə Azərbaycan Xalq Cümhuriyyəti arasında həmişə sülh və möhkəm dostluq olacaqdır"* [14, s. 11]. Azərbaycan Nümayəndə heyəti Osmanlı İmperiyası ilə 4 iyun 1918-ci ildə imzalanan müqavilənin 4-cü maddəsinə əsaslanaraq, Osmanlı İmperiyasına məktub göndərərək Azərbaycana hərbi yardım istədilər [3, s. 107]. Həmin dövrdə Gəncədə yaradılmış Məclis Komitəsinin sədri Nəsib bəy Yusifbəyli də İstanbula bir heyət göndərmişdi [1, s. 64-67]. Eyni zamanda Azərbaycandan gələn milli qüvvələr yardım almaq üçün Osmanlı İmperiyası ilə əlaqə saxlamışlar. Bu işin reallaşmasında Hüsaməddin Tuğaçın (rus əsarətindən qaçaraq Gəncəyə gələn Osmanlı əsgəri) böyük rolu olmuşdur [14, s. 5-7].

V.Keykurinin yazdığına görə hələ Azərbaycan nümayəndələrindən Nağıbəy Şeyxzamanlı, Ömər Faiq Nemanzadə və b. 1918-ci ilin başlarında Azərbaycana yardım göndərilməsi üçün Osmanlıya müraciət etdiklərini bildirir [7, s. 49-55]. Daha sonra Cəlal Haşımzadə və Ahılkələkli İbra-

him bəy Gəncədəki Milli Komitənin göstərişi ilə Osmanlı dövlətinə səfər etmişdilər. Onların əsas məqsədi türk ordusunu Azərbaycana dəvət etmək idi. Qısa müddətdən sonra bu şərtlər ilk faydalarını verməyə başladı.

**Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi.** Ənvər Paşa Qafqazda Azərbaycanın və Osmanlının himayəsi altında müstəqil dövlətlər qurmaq istəyirdi. Osmanlı imperiyası Azərbaycanın xahişi ilə Qafqaza ordu göndərmək qərarına gəldikdə, Ənvər Paşa öz qardaşı Nuru Paşanı bu orduya komandan təyin etdi [14, s. 5-7]. Daha sonra Hərbi nazir Ənvər Paşa Azərbaycanı rus, erməni və ingilis təcavüzündən xilas etmək üçün Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanı Azərbaycana yardıma göndərdi [1, s. 64]. Gəncəyə gələn Nuru paşa əvvəlcə bölgələrdəki müqavimət dəstələrini birləşdirməyə başladı. Nuru paşa Gəncənin vəziyyəti ilə tanış olduqdan sonra Üçüncü Ordu komandanlığına çox qiymətli və tarixi məlumatlar göndərdi. O zaman Nuru Paşa Üçüncü Ordu komandanı Vahib paşaya verdiyi məruzədə bunları bildirir: *"Gəncədə 600 əsgərdən ibarət Milli Korpus (hərbi hissə) adlı bir təşkilat var. Bakıya qarşı Kürdəmirdə Knyaz Maqalov adlı gürcü zabitinin komandanlığı altında 400-ə yaxın əsgər var. Bakı qırğını zamanı etnik mənsubiyyətin simvolu olan müsəlmanlarla nümayişə gürcülər göndərilib və bu əsgərlərdən 300 nəfəri Tiflisə qayıdıb."* Osmanlı İmperiyasının rəsmi müraciətinə uyğun olaraq Vahib Paşa 1918-ci il iyunun 7-də verdiyi qərara əsasən 5-ci Qafqaz diviziyası Gümrü istiqamətində iki qrup halında Qazağa gəldi. Qazax 1-ci qrup-divizion qərargahı. Onuncu Qafqaz alayı, IX Qafqaz alayının 26-cı batalyonu, Dağ artilleriya batalyonu, mühəndis diviziyası, teleqraf diviziyası, orkestr diviziyası, cəmi 147 zabit, 2812 əsgər, İkinci qrup – 13-cü Qafqaz alayı, güclü dağ artilleriya batalyonu, tibb şöbəsi, 24 səyyar xəstəxana; Səyyar mətbəx,110 zabit, 2763 əsgər göndərilmişdi. Qeyd edək ki, Beşinci Qafqaz Diviziyasının rəhbəri Mürsəl bəy, Baş Qərargahın rəhbəri isə Rüştü bəy idi. Nuru paşa həm də ordu hissələrini gücləndirmək üçün Gəncədə hərbi məktəb və qısamüddətli hərbi şəhərcik yaratdı. Eyni zamanda yaradılmış Azərbaycan korpusuna bir neçə Azərbaycan türkündən ibarət nizami bir alay, bir Dağıstan süvari alayı və bunlardan əlavə Azərbaycanın hər yerindən könüllülər daxil idi [14, s. 5-7]. 1918-ci il iyunun 7-də 3-cü ordu komandirinin dəstəyə verdiyi əmrə əsasən, 5-ci Qafqaz diviziyasının bir hissəsi Qazax yolu ilə Gəncəyə yola düşdü. Müsəlman zabitlərindən Gəncəli İbrahimzadə Nazim Əfəndi Ağstafa stansiyası ilə Gəncə arasında hərəkəti tənzimləmək üçün əvvəlcə Batumidən Gəncəyə göndəriləcəkdi [12, s. 32]. Ənvər Paşanın Azərbaycanla bağlı planı yerli qüvvələr hesabına türk zabitlərinin köməyi ilə 3 piyada diviziyası və 3 piyada alayından ibarət bir korpus yaratmaq idi. Nuru Paşa Mosuldakı 6-cı Ordu komandanlığından 149 yüksək rütbəli zabit seçib onlardan təlimçi kimi istifadə etməyi planlaşdırırdı [2, s. 184]. Nuru Paşanın çatacağı ilk yer Gəncə idi, çünki erməni və bolşevik qüvvələri Bakı ilə Gəncə arasında müsəlman əhaliyə qarşı təcavüzkar siyasət yeridirdilər [1, s. 64-67]. 3-cü ordu komandirinin qrupa verdiyi qərara əsasən, 5-ci Qafqaz diviziyasının digər hissələrinin Qazax yolu ilə Gəncəyə yola çıxdı. Bölmənin qatarla Ağstafa stansiyasından Gəncəyə daşınması üçün əvvəlcədən hazırlıq görüldü və Ağstafa stansiyası ilə Gencə arasında hərəkəti təşkil etmək üçün müsəlman zabitlərindən İbrahimzadə Nazim Əfəndi əvvəlcə Gəncəyə göndərildi [12, s. 32]. Özü üçün yeni müstəmləkələr əldə etmək istəyən Almaniya türklərin Qafqaza doğru irəliləyib Azərbaycana çatmasını istəmirdi. Türklərin Bakı əməliyyatına müsbət baxmayan Almaniya lazım gəldikdə bu əməliyyatın qarşısını almağa çalışırdı. Lakin bu çətinliklərə baxmayaraq, Ənvər paşa Qafqaza hərbi birləşmələr göndərməkdən əl çəkmədi. Eyni zamanda o, Mürsəl paşanın komandanlığı ilə 5-ci Qafqaz diviziyasını Qafqaz İslam Ordusuna kömək etmək üçün Azərbaycana göndərdi. Nuru Paşanın atdığı ilk addım Gəncədəki erməni quldur dəstələrini zərərsizləşdirmək oldu [1, s. 67-72]. Nuru Paşa Gəncəyə gəldiyi andan ordu qurarkən nizam-intizam yaratmağa çalışdı [3, s. 108]. Qafqaz İslam Ordusunun Gəncədəki Qərargahı bolşeviklərin dəmir yollarına da nəzarət etdiyini və paytaxtın real təhlükə altında olduğunu görəndə Nuru paşa Gəncə üçün əsl təhlükənin Göyçay yaxınlığındakı Qızıl Ordudan gəldiyini hesablamışdı. Paşanın bu görüşü müharibənin sonrakı mərhələlərində göründüyü kimi düzgün qərar idi. Çünki Göyçay döyüşləri və Qızıl

Ordunun Azərbaycandan qovulması Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında dönüş nöqtəsi oldu. 10-cu Qafqaz alayı Qarakilsə-Dəlican yolunu piyada keçərək Qazax yaxınlığında Ağstafaya daxil oldu. Şimaldan irəliləyən Qızıl Ordu qüvvələrinə qarşı durmaq üçün bölgəyə yenicə gələn 10-cu Qafqaz alayı xeyli yol qət etmiş və Azərbaycana yeni gəlmələrinə baxmayaraq, dincəlməyə belə vaxt tapmadan Ağstafadan Ucara göndərilmiş, oradan da Göyçaya yollanmışlardı. İyunun 15-də Türk Qafqaz İslam Ordusunun Baş Qərargah rəisi polkovnik-leytenant Nazim bəy komandanlıq etmək üçün Müsüslü və Kürdəmir cəbhələrinə göndərildi. 10-cu Qafqaz alayı Göyçaya gələrək Qaraməryəmə çatdıqdan sonra Qızıl Ordu qarşısında ön cəbhədə öz yerini tutdu. Osman bəyə 10-cu alayın 30-cu batalyonunun Soltankənd, Mollaisaqlı və Veysəlli kəndləri ətrafındakı quldur dəstələrini təmizləmək tapşırıldı. 30-cu batalyonun irəliləməsi nəticəsində erməni quldur dəstələri Qalakər kəndinə doğru qaçdılar [3, s. 117]. İyunun 12-də ermənilərə təslim olmaq xəbərdarlığı edildi, bu zaman ermənilər iyunun 13-14-də təslim oldular. Sonralar Qafqaz İslam Ordusu Gəncədə asayişi bərpa etməyə nail oldu. Gəncənin azad edilməsindən sonra Bakının rus-ingilis və erməni birləşmələrinin işğalından azad edilməsi nəzərdə tutulurdu. Bakıdakı erməni qüvvələrinin komandanı Şaumyan və daşnaksutyun terror təşkilatına mənsub dəstələr müsəlman kəndlərinə hücum edirdilər [1, s. 67-72]. Bakını vacib edən əsas səbəb onun Xəzər dənizi sahilində yerləşməsi və zəngin neft ehtiyatlarına malik olması idi [4, s. 22]. Bu müddət ərzində 17-30 iyun tarixləri arasında iki ordu Göyçay qəsəbəsi yaxınlığında qarşılaşdı və bolşevik-erməni ordusu dəf edildi. İstilərə və epidemiya xəstəliklərinə baxmayaraq, Qafqaz İslam Ordusu bu çətin şəraitdə Bakıya doğru irəlilədi [1, s. 67-72]. Məhəmməd Əmin Rəsulzadənin təbirincə desək, *“Azərbaycanı Bakısız təsəvvür etmək mümkün deyil (Bakısız Azərbaycanın başsız bədəndən fərqi yoxdur)”.*

1918-ci il iyunun 26-da Müsəlman korpusu ləğv edildi və onun əsasında Azərbaycan korpusu yaradıldı. Rayonlar erməni-bolşevik birləşmələrindən azad edildikdən sonra Qafqaz İslam Ordusuna qoşulan azərbaycanlı könüllülərin sayı artdı. Nəticədə, müharibələrdəki itkilərə baxmayaraq, Qafqaz İslam Ordusunun sayı azalmadı, əksinə, artmağa başladı. Azərbaycan əsgərləri təkcə öz birləşmələrində deyil, Osmanlı hərbi birləşmələrinin tərkibində də vuruşmuşlar (Türkiyə hərbi birləşmələrinin itkiləri Azərbaycan döyüşçüləri tərəfindən ödənilmişdir) [2, s. 169]. 1918-ci il avqustun 13-də Nuru Paşanın əmri ilə Əlahiddə Azərbaycan Korpusu ləğv olundu, lakin Azərbaycan hərbi hissələri öz mövqelərini (Qafqaz İslam Ordusunun tərkibində) saxladılar. Belə ki, Nuru paşa Bakıya həlledici hücum ərəfəsində azərbaycanlı zabitləri müxtəlif vəzifələrə təyin etməklə, Qafqaz İslam Ordusunun Azərbaycan hərbi birləşmələrindən qeyri-müsəlmanları uzaqlaşdırmağa çalışırdı [2, s. 170]. Qafqaz İslam Ordusunda yeni təşkilat: Göyçay və Salyan-Neftçala bölgələrində düşməndən təmizləndikdən sonra Qafqaz İslam Ordusu iyulun ortalarında paytaxt Bakıya yaxınlaşdı. Onların qarşısında Ağsu təpələri, sonra isə Şamaxı qəsəbəsi var idi. Ənvər paşa Nuru paşaya göndərdiyi əmrlə Bakının tez bir zamanda düşmən işğalından azad edilməsini və hərbi əməliyyatın dayandırılmasını istəyirdi. Çünki Almaniya və Rusiyadakı bolşevik sovet administrasiyası hərbi əməliyyatları dayandırmaq üçün get-gedə təzyiqlərini artırırdı. Nuru Paşa almanların müdaxiləsi qarşısında Osmanlı hərbi qüvvələri üzərində irəliləyişini gizlətmək üçün yeni bir təşkilat qurdu və Şərq Cəbhəsi və ya Bakı Cəbhəsi Komandanlığı yaradıldı. Mürsəl paşa bu cəbhənin başçısı təyin edildi və qərargah komandiri polkovnik-leytenant Osman bəyin komandanlığı ilə Şimal qrupunun Şamaxı üzərindən Bakıya doğru hərəkət etməsi qərara alındı. Şimal qrupunun hərbi hissələrini təşkil edən 10-cu Qafqaz alayına polkovnik-leytenant Səlim bəy, 13-cü Qafqaz alayına polkovnik-leytenant Əhməd Rıza bəy rəhbərlik edəcəkdi. Bundan əlavə, 25-ci, 26-cı və 28-ci batalyonlar ehtiyata təyin olundu. Bakıya yürüş edəcək qüvvələrin Şimal qrupu olacağı müəyyən olundu. Cənub qrupuna Azərbaycan türkü Həbib Səlimov rəhbərlik edəcəkdi. Bu dəstə Müsüslü-Kürdəmir-Hacıqabul-Bakı dəmir yolu ilə cənuba doğru irəliləyərək qarşısındakı düşməni təmizləyəcəkdi. Cənub Qrup Komandanlığına Müsüslü dəstəsi, 26-cı Batalyondan bir piyada birlik və süvari birlik daxil olacaq, 38-ci alayın 3-cü batalyonu, 27-ci batalyondan iki piyada rotası, 5-ci Qafqaz piyada mühəndislik rotası, 2 top və bir

zirehli qatar var idi. İyulun 6-da 5-ci Qafqaz Piyada Diviziyasını gücləndirmək üçün Osmanlı İmperiyasından hərbi dəstə göndərildi. 38-ci alay uzun yoldan sonra iyulun ortalarında cəbhəyə çatdı və 3 batalyon müvəqqəti paytaxt Gəncədə qaldı. Müsüslü bölüyünə iki batalyon qatıldı. Qalan batalyon ehtiyatda saxlanıldı. Bakıya yürüş edəcək qüvvələrin əsas hissəsini 5-ci Qafqaz diviziyasının 38-ci alayı təşkil edirdi [3, s. 146-147]. Sovet rəhbərliyi hesab edirdi ki, ingilislər Bakıya daxil olduqda və cəbhədə böyük döyüşlər olmadıqda, Qafqaz İslam Ordusu öz fəaliyyətini dayandırmalıdır. Almaniya ilə Rusiya arasında gizli danışıqlara əsaslanaraq, sovetlər ingilisləri qovmaq və Bakıya tam nəzarəti ələ keçirmək üçün əməliyyat təşkil edərkən Almaniya türklərin Bakıya daxil olmasının qarşısını almaq və Bakı neftindən pay əldə etmək məqsədi güdürdü. Lakin avqustun 18-də o, səhv etdiyini və Bakıdan gələn bir bolşevikin verdiyi məlumata görə Qafqaz İslam Ordusunun genişmiqyaslı əməliyyata hazırlaşdığını anladı. 5 avqust döyüşündən sonra Sentrokaspi qoşunları və ingilislər bir neçə dəfə hücuma keçməyə cəhd etdilər, lakin sonda geri çəkilməyə məcbur oldular.

Qafqaz İslam Ordusunun Bakını xilas etmək üçün kifayət qədər əsgəri yox idi. Bu tapşırıq avqustun 6-da 3-cü Ordu komandanlığına verildi (Komandirliyin bütün lazımi əşyaları göndərmək imkanı yox idi, lakin müəyyən köməklik göstərildi). 9-cu Ordunun 107-ci alayı (Qarakilsədə dayanmışdı) avqustun 9-da Bakıya yola düşdü. 36-cı diviziyanın piyada alayı və artilleriyasının Bakıya göndərilməsi əmri verildi. Bu hissələr gələnə qədər əsas kömək Ağdaş alayından gəldi. Sonra Gəncədən əməliyyat diviziyası, dörd piyada və bir pulemyot bölməsi Bakıya göndərildi. Bir neçə gündən sonra 7 zabit və 234 əsgərdən ibarət dəstə Gəncədən könüllü olaraq qatarla Bakıya göndərildi [2, s. 328-330].

**Bakının işğaldan azad edilməsi.** Ənvər paşa Bakının işğaldan azad edilməsində israrlı idi. Qafqaz İslam Ordusu avqustun 23-də bir qrup türk və alman zabiti mövqelərə gələrək, hərbi hissələri yoxladılar. Qafqaz İslam Ordusunun komandanı öz kiçik qüvvələri ilə şəhəri azad etməyə hazır olduğunu bildirdi. Alman planına görə, bütün süvari qoşunları Bakıdan şərqə doğru hərəkət etməli, digər qüvvələr Bibi-Heybətə toplaşmalı, digərləri isə 5. alay Bibi-Heybət-Hacı Həsən xəttinə hərəkət etməli idi. Batalyon Zabratı tutmalı, Balaxanı Sabunçu rayonundan Hövsan kəndi tərəfdən Zığa doğru irəliləməli, topçu alayı isə qrup halında (toplanaraq ehtiyat qüvvə kimi təyin olunacaq) yer tutacaqdı. Lakin Nuru Paşa alman komandirləri ilə razılaşmadı. Nuru paşa 311 və 364-cü Şimal təpələrini ələ keçirməkdə israr edirdi, çünki düşmən cəbhəsində bu təpələrə kifayət qədər sayda top yerləşdirilsəydi, qoşunların Biləcəri-Xırdalan istiqamətindən şəhərə hücumunun qarşısını alardı. Avqustun 26-da səhər saatlarında başlayan irəliləyiş 364-cü təpənin tutulması ilə nəticələndi. Burada 311-ci təpəyə artilleriya zərbələri endirilmədiyindən düşmən mövqeləri tam sıradan çıxarılmamışdı. Bu da irəliləyən Türkiyə-Azərbaycan qüvvələrinin güclü müqavimətlə üzləşməsinə səbəb olmuşdur. İngilislər 364-cü təpədən geri çəkildilər və şimaldakı Binəqədi kəndindən Biləcəri stansiyasına qədər düz bir xətt izlədilər. Palçıq vulkanının şərqindəki neft quyularını Varvik batalyonunun bir dəstəsi mühafizə edirdi, Şimal Stafford alayının bir bölüyü, iki erməni batalyonu isə Biləcəri yaxınlığında (stansiyada ehtiyat qüvvələr kimi) növbətçilik edirdi. Lakin Denstervil ermənilərin qorxaqlığını və intizamsızlığını vurğulayaraq onlara etibar etmədiyini yazırdı [2, s. 342-345]. Bu qarşıdurmada hər iki tərəfdən itkilər olmuşdur. Türk qoşunlarından 3 zabit və 23 əsgər şəhid olub, 3 zabit və 70 əsgər yaralanıb. Düşmən tərəfindən 150 cəsəd qalıb, 3 Sentrokaspi, 2 İngilis zabiti və 51 İngilis əsgəri əsir götürüldü, 14 pulemyot, 100 top mərmisi, 70 qutu tüfəng gülləsi və s. Qafqaz İslam Ordusu tərəfindən ələ keçirildi [3, s. 215-217]. Eyni zamanda 107-ci alayın iki batalyonu Binəqədidəki 311 saylı təpədə mövqe tutdu. 38-ci alayın 2-ci batalyonu Maştağada, 29-cu batalyon Digahın cənubunda və qərbində, 13-cü alayın bir batalyonu isə 364-cü təpədə idi. 107-ci alayın bir batalyonu və 13-cü alayın iki batalyonu ehtiyatda idi. 2-ci Murattab süvari alayı, Azərbaycan süvari korpusu Fatmayidə, Ləzgi süvari alayı Binədə, 2 krupp və 4 Şnayder silahı isə 38-ci alay stansiyasında yerləşirdi. Eyni zamanda, 311 və 364 saylı təpələrdə 2 rus dağ silahı, 4 rus çöl silahı və 4 krupp silahı var idi. Qərb qrupunun 9-cu alayına Puta ilə Hacı Həsənin arasında yerləşən 14 top, 10-

cu alayın isə 9-cu alayın sol qanadı ilə Xırdalanın şimal-şərq ayağı arasında yerləşən 14 topla dəstək verilirdi. Cənub qrupunda 4-cü alayın 2-ci batalyonu və Ağdaş Süvari Diviziyası Salyanda, 4-cü alayın 1-ci batalyonu Puta-Ələt arasında, xidməti hissələr isə Güzdək və Hacıqabulda yerləşmiş və onlara dəstək verilmişdir [2, s. 349]. Lakin bu qüvvələrdən asılı olmayaraq, Qafqaz İslam ordusu qəti qərar verdi və Bakını işğaldan xilas etmək üçün əlindən gələni etdi. Qafqaz İslam Ordusu Bakıya Yürüşü, Xəlil Paşanın Bakı ətrafında mövqelərini tutmasından sonra sentyabrın 11-də planlaşdırmışdı [10, s. 126]. Eyni zamanda 15-ci Piyada Diviziyasının komandiri polkovnik-leytenant Süleyman İzzət bəy də sentyabrın 3-də qərargahı ilə Gümrüdən yola düşdü. Burada 191 zabit və 5541 əsgərdən ibarət yaxşı təchiz olunmuş 15-ci piyada diviziyasının 56-cı alayı və 36-cı Qafqaz diviziyasının 106-cı Qafqaz alayı fəaliyyət göstərirdi. O, polkovnik-leytenant Süleyman İzzət bəy və tabeliyində olan hərbi birləşmələrlə sentyabrın 9-da Bakıda cəbhə xəttinə gəldilər. Əlavə qüvvələr gəldikdən sonra Nuru paşa şəhəri tutmaq üçün hazırlıqlara başladı və əvvəlcə Bakı ətrafında mühasirəni gücləndirdi. 15-ci piyada diviziyasının gəlişi ilə Qafqaz İslam Ordusu Komandanlığı, sentyabrın 10-da əmr verib və cəbhədəki bütün hərbi hissələrin döyüş hazırlığına başlamasını istədi. Şərq Cəbhəsi Komandanlığı və onun Şimal Qrupu ləğv edilərək əməliyyata rəhbərlik edəcək Türk-Qafqaz İslam Ordusunun nəzarətinə verildi. 5-ci Qafqaz Piyada Diviziyasına Mürsəl Paşa, 15-ci Piyada Diviziyasına Süleyman İzzət bəy, Cənub Qrupunun hərbi hissələrinə isə polkovnik Cəmil Cahit komandanlıq edəcəkdi. Halim Pertev bəy də Cənub Qrupuna bağlı Azərbaycan türklərindən (milislərindən) ibarət 4-cü alaya komandanlıq edəcəkdi. Türk Qafqaz İslam Ordusunun və 5-ci Qafqaz Piyada Diviziyasının qərargahı Güzdəkdə, 15-ci Piyada Diviziyasının qərargahı isə Binəqədidə olacaqdı. Hazırlanmış döyüş planına əsasən, Qafqaz İslam Ordusu Qərargahı sentyabrın 13-dən 14-nə keçən gecə 12-də qərbdən Bakıya kütləvi hücuma keçmək qərarına gəldi. Düşməni təəccübləndirmək üçün bəzi tədbirlər görüldü. Sentyabrın 3-dən başlayaraq Bakı hökumətinin əlində olan təyyarələr Yanardağ və Binəqədi ətrafına toplaşaraq Türkiyə hərbçilərinin şimal bölgəsinə müdaxiləsini müşahidə edərək hücum gününə qədər hər gün kəşfiyyat uçuşları həyata keçirirdi. Nuru Paşanın verdiyi əmrə əsasən, Şimal cəbhəsində 15-ci piyada diviziyasının komandirinin tabeliyində Azərbaycan türklərindən təşkil olunmuş 38-ci alay, 2 süvari alayı və milis batareyası var idi. Qalan bütün hərbi qüvvələr sentyabrın 13-dən 14-nə keçən gecə qərb cəbhəsinə köçürüldü. Cəbhədəki artilleriya bölməsinin böyük bir hissəsi 5-ci Qafqaz piyada diviziyasına verildi. Bakı cəbhəsində döyüşməyə hazır olan Türk Qafqaz İslam Ordusuna Anadoludan gələn təxminən 8 min türk əsgəri və 7 min Azərbaycan türkündən ibarət milis qüvvələri dəstək verdi. 9-cu və 5-ci alaylar Bakıda birləşmiş düşmən qüvvələrinin müdafiə xəttini yarmağa hazır vəziyyətdə gözləyirdilər [3, s. 209-217]. Sentyabrın 13-də Hacı Həsən kəndinin qərbindəki müşahidə məntəqəsində Nuru paşa Bakıya hücum əmri verdi. Bildirdi ki, göstərişə əsasən, hücum sentyabrın 14-nə keçən gecə başlamalıdır [2, s. 362]. Sentyabrın 13-dən 14-nə keçən gecə Qafqaz İslam Ordusu yatmayıb, avqustun 5-dəki məğlubiyyətinin qisasını düşməndən almağı gözləyib. Ehtiyatda olan 13-cü alay, 106-cı alay 9-cu alayın sağ cinahını və 56-cı alayın sol cinahını düşmən hücumlarından qorumaq üçün irəliləməyə başlamışdı. Düşmənin ilk müdafiə xətti qırıldı. Qurd Qapısı dağında yerləşən düşmən birləşmələri hərəkətə keçməyə çalışsalar da geri çəkilməyə məcbur oldular. İrəli əməliyyatını uğurla davam etdirən 56-cı alay düşməni geri püskürtdü. 13-cü və 19-cu alaylar düşmənin səngərlərini darmadağın edə bildi. İkinci Bakı hücumu zamanı fövqəladə ruh yüksəkliyi ilə vuruşan 56-cı alayın əsgərləri Bayıl Həndəvarda düşməni ağır məğlubiyyətə uğratdılar. Bundan sonra düşmən ordusu tamamilə məğlub olduqdan sonra dağılmağa başladı [3, s. 219-221]. Tofiq bəyin Maştağa dəstəsi Sabunçu stansiyasını tutdu. 5-ci Qafqaz piyada diviziyası öz missiyasını uğurla başa vuraraq Bakının kənarına daxil ola bildi. Küçə toqquşmalarında insan tələfatının qarşısını almaq məqsədilə aksiya saat 16:00-dan dayandırıldı. 1918-ci il sentyabrın 14-də axşam saatlarında sağ tərəfdən 5-ci Qafqaz piyada diviziyası, 13-cü, 9-cu, 56-cı və 10-cu alaylar gəldi. Onlar Xristian qəbiristanlığı-Sallaxana-Qırmızı kazarma, Ağ kazarma xəttində mövqe tutdular. İkinci Bakı hücumunun ilk günündə baş verən qanlı

toqquşmalarda 56-cı alayından bir zabit və 16 sıravi əsgəri şəhid olub, iki zabit və 47 sıravi əsgər yaralanıb. 15-ci Piyada Diviziyasının 38-ci Alayından bir zabit şəhid olub, bir zabit və 116 nəfər yaralanıb. Türk Qafqaz İslam Ordusunun Bakıya doğru ikinci yürüşünə müqavimət göstərə bilməyən ingilis generalı Denstervil həmin gün ingilis qoşunlarına Bakını tərk etməyi əmr etdi [3, s. 223-228]. İngilislərin Qafqazı tərk etmələri ermənilər üçün heç də yaxşı olmamışdı. Ona görə ki, ingilislərin nəzarəti altında türk bölgələrinə yerləşdirilən ermənilər burada misli görülməmiş qətl və cinayət törədirdilər [11, s. 52].

Ermənilər və ruslar Qaraşəhərdə təslim olduqları ilk saatlarda iki zabit və 80 sıravi əsgərlə birlikdə 800 piyada tüfəngi və 6 pulemyot təslim oldu. Lakin ermənilər və ruslar mülki geyimdə küçələrdə gizlənərək əsgərlərə atəş açmışlar. İkinci Bakı yürüşündə Azərbaycan milisinin gücündən kifayət qədər istifadə edildi. Maştağa dəstəsi döyüşsüz kazarma məntəqəsini ələ keçirdi. Zihni bəyin dəstəsi Zığ təpələrinə pənah gətirmiş iki yüz erməni, daşnak və bolşevik rus əsgərini geri püskürtərək şəhərin şərq tərəfini tam nəzarətə götürdü. Bakı küçələrində saat 15:00-dək davam edən toqquşmalarda erməni və rus qoşunlarının müqaviməti tamamilə qırılıb və onların təslim olmaqdan başqa çarəsi qalmamışdı. Hacıqabuldakı Cənub Qrupunun komandiri Cəmil Cahit (Toydəmir) Mövqe komandiri təyin olundu və axşam saatlarında şəhərə daxil oldu. Şəhərdə asayişi qorumaq üçün mayor Fəhmi bəyin komandanlığı altında 56-cı alayın 38-ci Piyada Alayının batareyası ilə şəhərin şərqindəki Qaraşəhər mahalını qorumaq üçün təyin edilməsi qərara alındı [3, s. 225-229]. 1918-ci il sentyabrın 15-də Bakı işğaldan azad edildi və iki gün sonra (1918-ci il sentyabrın 17-də) hökumət mərkəzi Bakıya köçürüldü [9, s. 67]. Hökumətin Bakıya köçməsi Qurban bayramına təsadüf etdi və xalq iki bayramı bir yerdə qeyd etməyin sevincini yaşadı. O zaman Bakının azad edilməsində böyük fədakarlıqlar göstərən Xəlil və Nuri Paşa və onların əsgərləri alqışlarla qarşılandı [2, s. 79-80] Eyni zamanda, Qafqaz İslam Ordusunun birlikləri də müvəffəq oldular) [6, s. 234]. Məhəmməd Əmin Resulzadə "Sənə-i Devriyyə" adlı məqaləsində *"Osmanlı ordusunun Bakıda olmasından narahat olan qruplara Osmanlı dövlətinin Azərbaycanı ələ keçirmək fikrində olmadığını və yalnız ona kömək əlini uzatdığını bildirmişdi*" [2, s. 79-80].

**Nəticə.** Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra onun qarşısında duran ən mühüm məsələlərdən biri Bakını düşmən işğalından xilas etmək idi. Azərbaycan idarəçiləri bu problemi həll etmək üçün Osmanlı İmperiyasından kömək aldılar. Ənvər paşa Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunu quraraq Azərbaycana göndərdi. Nuru Paşa Azərbaycana gələrək orada nizam-intizam yaratdı və sonda 1918-ci il sentyabrın 15-də Bakını düşmən işğalından azad etməyə nail oldu. 1918-ci il sentyabrın 17-də Azərbaycanın paytaxtı Gəncədən Bakıya köçürüldü. Bakının Qafqaz İslam Ordusu tərəfindən erməni və bolşevik işğalından azad edilməsi Azərbaycanın müstəqillik mübarizəsində tarixi dönüş nöqtəsi oldu. 1918-ci il sentyabrın 15-də baş tutan bu qələbə Osmanlı imperiyasının Qafqaz Cəbhəsindəki son böyük uğuru idi. Bakının azad edilməsi təkcə Azərbaycanın azadlığı üçün deyil, həm də türk dünyasının bölgədəki strateji tarazlığı üçün mühüm hadisə idi. Bu qələbə nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyi təmin olundu. Qafqaz İslam Ordusunun qələbəsi Azərbaycanın müstəqillik yolunda mühüm addım atmasına imkan verdi. Bakının erməni, bolşevik və ingilis qüvvələrindən təmizlənməsi Azərbaycan üçün siyasi və iqtisadi sabitliyin təmin olunması üçün böyük imkan yaratdı. Bakının azad edilməsi Osmanlı-Azərbaycan münasibətlərini möhkəmləndirdi, iki xalq arasında həmrəyliyi gücləndirdi. Bu hadisə Azərbaycanın Türkiyə ilə əlaqələrini daha da dərinləşdirdi və türk dünyasında birlik və həmrəylik ruhunun simvollarından birinə çevrildi. Bakının azad edilməsi Azərbaycan xalqının müstəqillik mübarizəsinə böyük mənəvi təkan verdi. Bu qələbədən sonra Azərbaycan qısa müddət ərzində də olsa, xarici müdaxilələrə qarşı daha sərt mövqe sərgiləyə bildi.

## ƏDƏBİYYAT

1. Altınsoy Y. Qafqaz İslam Ordusu və Bakı Zəfəri // Qaratay Sosyal Araştırmalar Dərgisi, Bahar, 2019, № 2.
2. Ağayev Y., Əhmədov S. İstiklal Yürüşü (1918). Bakı: Altın Kitap, 2009.
3. Görüryılmaz M. Türk Qafqaz İslam Ordusu və Ermənilər (1918). Bakı: İsmət, 2008.
4. Qafarov T. Azərbaycan Tarixi. Bakı: Çaşıoğlu, 2009.
5. İsgəndərov A. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun tariximizdəki yeri // Strateji Təhsil, Bakı, 2018, № 1(2), s. 23-24.
6. İsmayılbəyli V. Azərbaycan Demokratik Cümhuriyyəti (ADR) Dış Politikası və Əli Mərdan Topçubaşı // Avrasya İncələmələri Dərgisi, İstanbul, 2020, № 234.
7. Keykurin V. Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri. I hissə, Bakı: Azərbaycan Elmlər Akademiyası Milli Münasibətlər İnstitutu, 2007.
8. Mustafayev B. Rəsulzadə höküməti dönəmi və yaşanan teror olayları (1918-1920) // Avrasya İncələmələri Dərgisi, 2013, № 2 (2).
9. Nəsipli N. Azərbaycan Demokratik Respublikasının Xarici Siyasəti. Bakı: Qanun, 2011.
10. Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı: Hərbi nəşriyyat, 2016.
11. Şıxəliyev E.A. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: Əcəmi, 2016.
12. Türkər G.R. Qafqaz Türk İslam Ordusu Bakı yollarında. Bakı: Qafqaz Üniversiteti, 2008.
13. Yaqublu N. Qafqaz İslam Ordusu və Nuru Paşanın Azərbaycanda İzləri. Bakı: Adiloğlu, 2012.
14. Yaqublu N. Qafqaz İslam Ordusu Azərbaycanda (Bakının qurtuluşunun 95-ci ilinə). Bakı: Yayınevi.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: sefer.alv085@gmail.com***

**Safar Aliyev**

## THE ASSISTANCE TO AZERBAIJAN OF THE CAUCASIAN İSLAMIC ARMY UNDER THE COMMAND OF NURU PASHA

After the fall of the Tsarist government, unlike the other new independent countries in the Caucasus, Azerbaijan had almost no ammunition and trained soldiers. Azerbaijan had to fight against the aggression of Russian Bolsheviks, Armenian Dashnaks and other forces. At this time, the Azerbaijani leaders initiated the formation of the Azerbaijani national army. According to Article 4 of the treaty signed with the Ottoman Empire in Batumi on June 4, 1918, assistance was requested from the Ottoman Empire to send military aid to Azerbaijan. For this reason, the Caucasian Islamic Army took action to liberate Baku from occupation in 1918. Established with the support of the Ottoman Empire, this army aimed to contribute to Azerbaijan's struggle for independence. In the summer of 1918, The Caucasian Islamic army arrived in the region to save Baku from foreign enemies. After joining with the Azerbaijani forces, the Caucasian Islamic army moved towards Baku and organized a march to Baku in September of the same year. Finally, on September 15, 1918, Baku was liberated from enemy occupation. This event was an important turning point in Azerbaijan's struggle for independence. With the liberation of Baku, the Caucasian Islamic Army played an important role in the political future of Azerbaijan.

**Keywords:** *arrangement of the National Army, Batumi Treaty, Caucasian Islamic Army, Nuru Pasha, Baku.*

**Сафар Алиев**

# ПОМОЩЬ АЗЕРБАЙДЖАНУ КАВКАЗСКОЙ ИСЛАМСКОЙ АРМИИ ПОД КОМАНДОВАНИЕМ НУРУ-ПАШИ

После падения царского правительства, в отличие от стран, вновь обретших независимость на Кавказе, в Азербайджане практически не было оружия и обученных солдат. Азербайджану пришлось бороться с агрессией русских большевиков, армянских дашнаков и других сил. Тогда руководство Азербайджана реализовало инициативу по созданию Национальной армии Азербайджана. Согласно статье 4 договора, подписанного с Османской империей в Батуми 4 июня 1918 года, у Османской империи была запрошена военная помощь Азербайджану. По этой причине Кавказская исламская армия в 1918 году предприняла действия по спасению Баку от оккупации. Эта армия, созданная при поддержке Османской империи, стремилась внести свой вклад в борьбу Азербайджана за независимость. Летом 1918 года в регион прибыла Кавказская исламская армия для освобождения Баку от иноземных врагов. Кавказская Исламская Армия, соединившись здесь с азербайджанскими силами, двинулась к Баку и в сентябре того же года организовала поход на Баку. Наконец, 15 сентября 1918 года Баку был освобожден от вражеской оккупации. Это событие стало важным поворотным моментом в борьбе Азербайджана за независимость. С освобождением Баку Кавказская исламская армия сыграла важную роль в политическом будущем Азербайджана.

**Ключевые слова:** *организация Национальной армии, Батумский договор, Кавказская Исламская Армия, Нуру-Паша, Баку.*

(*Tarix elmləri doktoru Emin Şıxəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 04.07.2025**
**Son variant 30.07.2025**